# Səttar Bəhlulzadə

## mənzərələrinin üslub xüsusiyyətləri



**Səttar Bəhlulzadənin yaradıcılığında rəng plastikası və rəng kompozisiyasının bədii həlli, rəssamın özünəməxsus üslub xüsusiyyəti və əsərlərini xarakterizə edən əsas cəhət kimi meydana çıxır. Bədii rəng duyumu və onun təkrarsız ifadəsi Səttar tablolarının fərdi kredosunu təşkil edir. Rəssamın əsərlərinin mürəkkəb və orijinal rəng həlli, yalnız fenomenal rəng duyumu sayəsində reallaşır.**

**Rəssam təbiətdə gördüyü rəngləri, duyduğu və hiss etdiyi kimi modelləşdirməkdən, onlar arasında harmonikliyə nail olmaqdan, çox vaxt isə, reallıqda mövcud olan mənzərəni özünəməxsus "əlavələr" və "yerdəyişmələrlə" işləməkdən çəkinmirdi.**

Rəssamın əsərlərində rəng harmoniyasına əsaslanan boya plastikası, dekorativ effekt və ya cəlbedicilik xatirinə deyil, real gerçəkliyin poeziyasını rənglərdə duyduğu kimi ifadə etmək üçün işlədilir. "Səttarın rəngləri elə bil nağıllar aləmindən baş alıb gəlmişdir. Onun sənətkar qüdrəti sayəsində bizim gördüyümüz adi boyaların qarışığıqından təkrarolunmaz rəng çalarları yaranmışdır".

Bu baxımdan rəssamın "Bilgəh" (1962), "Göl sahilində" (1962), "Dədəgünəş" (1964), "Kəpəzin göz yaşları"(1965), "Bazar düzü" (1970) əsərləri xüsusilə maraqlıdır. Bu əsərlərin hər birində Səttar rəng plastikası ilə kompozisiya quruluşu arasında ümumi qanunauyğunluq tapmış, intensiv vurulan yaxılar tablonun emosionallığını təmin etmişdir. Əsasən ağ, yaşıl, sarı və göy rənglərin müxtəlif ton və yarımtonlarını kətana müxtəlif konfiqurasiyalı yaxılarla vuran rəssam, "Bilgəh" və "Göl sahilində" əsərlərində yüksək dinamikliyə və ekspressivliyə nail olmuşdur. Rəng qammalarının plastik həlli, rəssamın təbiət təəssüratlarının emosional ifadəliyini daha da artırır. Bu cəhət onun bir sıra mənzərələrinin özünəməxsus üslubunu səciyyələndirir.

"Dədəgünəş" (1964) tablosu rəssamın rəng plastikası və rəng kompozisiyasının bədii həlli baxımından olduqca maraqlı əsərlərindəndir. Burada rəssamın təkrarsız rəng duyumu öz yüksək ifadə tərzini tapmışdır. Əsərdə real gerçəkliyin poetikliyi özünəməxsus tərzdə modelləşdirilmiş, harmonik boya plastikasına nail olunmuşdur. Ön planda iri yaxılarla intensiv vurulan yaşıl, qırmızı, sarı və ağ rənglər - torpağın zənginliyinin rəmzi ifadəsinə çevrilir. Formaların dəqiq təsvirindən imtina edən rəssam, yalnız rəng plastikası və rəmzi rəng seçimi vasitəsi ilə güllü-çiçəkli torpaq təəssüratının ümumiləşdirilmiş obrazını yaratmağa nail olmuşdur.

Beləliklə, Səttar mənzərələrinin daha bir xarakterik xüsusiyyəti, hər bir təbiət mənzərəsində, həmin yerlərə xas olan bir sıra səciyyəvi keyfiyyətləri toplayaraq, ümumiləşdirilmiş rəmzi obraz yaratmaq cəhdi meydana çıxır.

"Kəpəzin göz yaşları" əsərində rəssam, reallıqda mövcud olan mənzərəyə "yerdəyişmə" edərək, Kəpəzi Göy-gölün sahilinə "gətirmişdir". Məhz bu "yerdəyişmə" sayəsində Kəpəzlə Göy-göl bilavasitə təmasda verilmiş, əsərin ideyası məhz bu "yerdəyişmə" sayəsində reallaşmışdır. "Səttardan əvvəl də, sonra da Göy-gölü fırçaya alan rəssamlar çox olmuşdur. Amma heç kəs belə yüksək sənətkarlıqla bu dilbər guşənin obrazlı təsvirini verə bilməmişdir".

Səttar təbiəti kor-koranə təqlid etməkdən çox uzaq olub, onu özünün hiss etdiyi və duyduğu kimi təsvir edirdi. Səttar üslubunun maraqlı cəhəti ondadır ki, yaradıcılıq prosesində rəssam nə tamaşaçı üçün, nə də material, forma axtarışları üçün işləyir. O, əsərlərində rəng münasibətlərinin daxili plastikasının köməyi ilə özünün dünyaduyumunu açmağa çalışır, hissiyat və poetik əhvalını vizual görüntülərə çevirir. Məsələn, "Laza kəndinin şəlalələri"(1972), "Şahnabad dağları" (1973) əsərlərində rəssam real naturadan xeyli uzaqlaşmış, bu mənzərəyə baxarkən hiss etdiyi duyğuları, aldığı təəssüratları özünəməxsus şəkildə traktovka edərək kətana köçürmüşdür. Bu yerlərdə heç olmasa bir dəfə olan insanlar, Səttar tablolarına baxarkən və real təbiət mənzərəsini əsərlə müqaisə etdikdə, rəssamın poetik interpretasiya bacarığına və abstrakt təfəkkür tərzinə heyran qalırlar.

Ritmik şəkildə təkrarlanan boya yaxılarında bir rəngin müxtəlif ton dərəcələrinin yanaşı vurulması, rəng keçidlərində hava məkanının saxlanması, işığın və fəza effektlərinin yüksək səviyyədə həlli, əsərə nikbin ovqatla yanaşı, həm də yüngül və şəffaf hava axını gətirir. Çox vaxt rəssam vahid tonallığa tabe edilmiş rənglər vasitəsi ilə çəkdiyi mənzərənin məkan quruluşunu, "təsadüfi təfəkkür oyunu" sayəsində dəyişdirir, ona müəyyən "əlavələr" edir. Beləliklə, rəng plastikası vasitəsi ilə kətanda mürəkkəb rəng harmoniyası və dinamik struktura malik "mütləq rəng aləmi" yaradılır.

Naturanın, o cümlədən mənzərənin subyektiv qavranılması, bədii abstraksiya sayəsində özünəməxsus estetik təqdim tərzi formalaşdırır. Onlar bir-birini gücləndirərək, vəhdətdə çıxış edirlər. Reallığın - mücərrəd, stilizə edilmiş, "qarışıq" və ya ümumiləşdirilmiş obrazlarla üzvü əlaqədə ifadə edilməsi sayəsində, tamaşaçı elə poetik obrazlar və rəng harmoniyası ilə qarşılaşır ki, bu təəssürat uzun müddət onu tərk etmir. Tamaşaçıların sərgi salonlarında Səttar tabloları qarşısında uzun müddət ayaq saxlamalarının səbəbini məhz burada axtarmaq lazımdır.

Təsadüfi deyildir ki, Səttarın əsərlərindəki fəlsəfi ümumiləşdirməni, poetik obrazlığı və nikbin başlanğıcı, onların daşıdığı vizual və poetik informasiyanı anlamaq üçün müəyyən hazırlıq tələb olunur. Belə bir hazırlıq olmadan əsər, qapalı informasiya daşıyıcısından, bizim halda isə "qarışıq rənglər aləmindən" başqa bir şey deyildir.

Səttarın əsərlərində kompozisiyanın struktur quruluşu və bədii ideyası rənglər, onların yarımkölgə və kölgələri, tonallıq səviyyələrinə görə rəngarəngliyi plastik ifadə tərzi ilə sıx şəkildə əlaqələndirildiyindən, bu vəhdətin yaratdığı obrazlılıq öz fərdiliyi ilə seçilir. Əsərlərində monoxromluğu istisna edən rəssam, üstünlüyü təmiz rənglərə, rəng keçidlərinin yumşaqlığına, eləcə də alınma rənglərin kombinasiyalarına, bəzən isə zəruri tonal təkrarlığı sıxlaşdırmaqla maraqlı rəng harmoniyası yaratmağa müvəffəq olur.

Bütün bunları isə rəssam, bəzən dolğun və qatı yaxılarla, bəzən də titrək xətlərlə, çox vaxt isə sıx vurulan nöqtələrlə - puantilizm üslubunda kətanda ifadə edirdi. Rəssam hər bir mənzərəsi üçün rəng münasibətlərinin plastikasının orijinal "kolor açarını" tapmaqla, onun rəng kompozisiyasını həll edirdi.

60-70-ci illərdə Səttar yaradıcılığının üslub xüsusiyyətində rəngkarlıq texnikasının dəyişilməsi və

əsərin emosional məzmununun mürəkkəbləşməsinin şahidi oluruq. Məhz buradan "...irəliyə, axtarışa, yüksək boyakarlıq mədəniyyətinə, konturların parlaq dekorativizminə, yaxıların və boya örtüyü sahələrinin estetik təsirinin qüvvətləndirilməsinə, bədii folklor qaynaqlarına, milli bədii irsin ənənələrinə doğru maraqlı yol başlanır".

Bütövlükdə milli təsviri sənətimizdə mənzərənin tamamilə yeni konsepsiyasını irəli sürən Səttar, öz əsərlərində onun emosional-poetik təsdiqini rəng-forma münasibətlərində göstərə bilmişdir. Bu dövrdə rəssamın təbiətlə təmasdan aldığı poetik təəssüratların sərbəst ifadəsi, təsvir obyektinin özünəməxsus cəhətlərinin xarakterini ümumiləşdirərək, obraz səviyyəsinə yüksəldərək ön plana çəkilməsi, Səttar yaradıcılığının kredosuna çevrilir.

Onun əsərlərindəki günəşin parlaq işartıları, havanın şəffaflığı, rənglərin təmizliyi və incə çalar dəyişkənliyi, bütün kompozisiyanın vahid koloritə tabe edilməsi sahəsində atdığı addımlar, o cümlədən plenerə verdiyi üstünlük, Səttarın yaradıcılıq üslubunda impressionizmə olan meyli açıq-aydın ifadə edir.

Ümumiyyətlə "mənzərə üzərində işləyən rəssam, naturanı seçərkən, təbiətin hər bir guşəsini nəzərdən keçirir və burada "özününkü" olanı, onun düşüncələrinə, mənəvi aləminə və intellektual səviyyəsinə yaxın olanı axtarır". Səttar çox vaxt mənzərənin konkret vəziyyətindəki kompozisiyadan çıxış etməklə yanaşı, bir tərəfdən təbiətə, digər tərəfdən bu təbiət mənzərəsinin subyektiv şəkildə, şəxsən onda hansı poetik təəssüratlar oyatmasına və bütün bunları hansı rənglərlə assosiasiya etməsinə istinad edərək işləyirdi.

Bu vaxt rəssamın mənzərəni vahid rəng kompozisiyası kimi görməsi, işıq və hava məkanının rənglərin ahəngini və ya kontrastlığını tapması isə sənətkarın şəxsi poetik intuisiyasına istinad etməsi sayəsində yaradılırdı. Səttar təbiətdə onu maraqlandıran motivin tapılmasına və bu mənzərənin obrazlı görüm nöqtəsinin seçilməsinə mühüm əhəmiyyət verirdi. O, reallıqda mövcud olan formaların gözəllik və harmoniyasını saxlamaqla yanaşı bu kompozisiyaya müəyyən fraqmentar təsvir vahidlərini əlavə etməklə, bəzən onun rəng-forma traktovkasını və ya işıq-kölgə effektini dəyişdirməklə işləyirdi.

"Səttar sözün əsil mənasında dilsiz-ağızsız saydığımız təbiəti bizimlə həmsöhbətə çevirə bilmişdir. Keşməkeşli illərin şahidi Kəpəzin "için-için ağlamasını", Naxçıvan dağlarının tunc zirvəsindən burula-burala qalxan obrazlı görkəmə malik tüstü-dumanı, Bazar düzünün nağılvari qürub çağını gördükdə qeyri-ixtiyari öz-özünə; "Belə necə görmək olar, bu ki, lap əfsanədir, nağıldır?!" sözlərini pıçıldayırsan".

Bütün bunlar dekorativlik və effektlilik xatirinə deyil, naturanın ilk baxışdan görünməyən poetik gözəlliyinin, onun ahənginin rəssamda doğurduğu poetik-rəmzi əhvalının ifadəsinə çevrilirdi. Günün müxtəlif vaxtlarında, günəşin və havanın dəyişkən vəziyyəti və bütün bu təbiət hallarının rəssamda yaratdığı təəssüratların vizual ifadəsi rəssamı çox maraqlandırırdı.

Onun 60-cı illərdə dəfələrlə müraicət etdiyi badam ağacı motivi ("Apşeron motivi", "Apşeronun təcı", "Çiçəklənən badam ağacı") məhz bu qəbildəndir. Ümumiyyətlə, Səttarın yaradıcılığında təbiətə bağlılıq, torpağa sevgi, onun yaratdığı nemətlərə hədsiz məhəbbət qırmızı xətlə keçərək, yaradıcılığının leytmotivini təşkil edir.

Səttar, mənzərədə hamı tərəfindən qəbul edilmiş ənənəvi zahiri gözəllik axtarmır, o daha maraqlı, mürəkkəb və özünəməxsusluğu ilə seçilən kompozisiyalara üstünlük verərək, qeyri-adi forma quruluşu və rəng uyarlığını qurmağa çalışır. Rəssam mütəmaddi olaraq, bu kriterilərdən çıxış edərək, seçdiyi təsvir obyekti üzərində işləyir. Məzh bu vaxt rəssam özünəməxsus formalar, rəng çalarları, ümumiləşdirilmiş obrazlar aləmi yaratmağa müvəffəq olur.

Beləliklə, təbiətdə rast gəlinməyən, lakin rəssamın assosiativ duyumuna, poetik əhvali-ruhiyyəsinə uyğun olan formalar və rəng çalarları təkraredilməz rəmzi və poetik təbiət mənzərələri yaranır. Rəssam təbiəti, rəng münasibətlərinin plastik harmoniyasında qavrayır.

Real gerçəkliyin təklif etdiyi pərakəndəlik və vəhdət, xaos və harmoniya, müəyyənlik və qeyri müəyyənlik kimi təzahürlər rəssamın təxəyyülündə müxtəlif rəng qammalarının və tonallıqlarının plastik şəkildə ifadəsi kimi canlanaraq, kətana köçürülür. Bu vaxt boyanın hansı texnikada vurulması, yaxıların intensivliyi və dinamikliyi, pərakəndəliyi və ya birliyi, sıxlığı və ardıcıllığının əsərin bədii obrazlılıq cəhətlərinin, onun ümumi ruhunun, daxili ritminin üzə çıxarılmasında məxsusi əhəmiyyətə malikdir.

Bu baxımdan rəssamın "Novxanı bağlarında" (1965), "Şamaxı üzümlükləri" (1971), "Girdiman təpələri"(1971) əsərləri xüsusilə maraqlıdır. Hər bir əsərdə kompozisiyanın ümumi və daxili poetik ritmi, rəng qammalarının seçimi və onun icra texnikası ilə bağlı şəkildə meydana çıxır. Burada rəng yaxılarının qatılığı, dolğunluğu, ölçüləri, forma ilə ahəngdarlığı məxsusi funksiya daşıyıcısına çevrilir.



Rəssam təbiətin real simasını görür, onu öyrənir, onunla təbiət arasında əsl yaradıcılıq ittifaqı yaranır. Bu vaxt "vizual təəssüratının yaratdığı informasiya, rəssamın intuisiyası və dünyaduyumu vasitəsilə dərk edilərək, tamamilə yeni plastik forma strukturu və rəng quruluşunda təzahür edir, rəngkarlıq əsəri gözəl bir poemaya çevrilir".

Səttarın əsərlərində rənglərin emosional plastik əlaqəsi rəssamın üslub xüsusiyyətinin ayrılmaz hissəsi kimi meydana çıxır. Rəssam mənzərənin əsasən birinci və ikinci planında plastik və dolğun "rəng kompozisiyalarını" qurmağa çalışır. Onları tədqiq edir, dinamika və plastika etibarı ilə müxtəlif olan ritm və formalardakı dəyişkənliyi özünəməxsus variantda ifadə edir, işığın paylanmasını, kölgə və yarımkölgələrin tonallığını müəyyənləşdirir. Bu vaxt kətanda təsvir edilən mənzərə, uğurlu tapılmış plastik rəng variantlarından istifadə etməklə, xüsusi məna yükünə malik olan, tamamilə yeni rəng aləmi yaradır.

"Əgər rəssam təxəyyülündə hər hansı orijinal ideya - rəngarəng obraz və ritmlər, yeni-yeni mənzərə motivləri və kompozisiyaları yaradırsa, bu proses onu qeyri ordinar kompozisiya və plastik rəng həlli axtarmağa sövq edər".

Səttarın da kompozisiyanın struktur quruluşu və rəng həlli, təkcə üslubu deyil, habelə rəngkarlığın novator və estetik mövqeyini, müstəqil bədii təfəkkür və görüm tərzini formalaşdırır.

Rənglərin plastik harmoniyası sayəsində yaradılan mənzərələrdə rəssam naturanın traktovkasını improvizə sayəsində bir qədər dəyişdirərək, zənginləşdirir. Obrazlı ifadə tərzinə və fərdi rəng duyumuna malik olan Səttar, təbiətdə pərakəndə tərzdə səpələnən məqamları toplayaraq, onlar arasındakı uyğunluqlara əsaslanaraq işləyir. Bunun üçün isə əsas şərtlərdən biri, rəssamın obrazlı ifadə tərzinə malik təfəkkürə və rəng plastikası təxəyyülünə malik olmasıdır.

Təsadüfi deyildir ki, rəssam "Təbiətdəki hər şey rəssamın əsərində gözəl olmur. Gözəllik bir fəlsəfədir ki, o, rəssamın fikrində, xəyalında yaradılır. Mənim vahid halda düşünüb əks etdirdiyim şey həm təbiətdə, həm də həyatda çox pərakəndə, dağınıq şəkildədir. Mən min zərrədən bir vəhdət yaradıram" deyirdi.

Bu xüsusiyyətlərin Səttar fenomenində yüksək səviyyədə təzahür tapması, onun yaradıcılığını dəyərləndirən amil və fərdi üslubunun özünəməxsus cəhəti kimi meydana çıxır. Formalaşan üslub xüsusiyyəti məhz belə bir münbit zəmində özünü daha tez və mütəşəkkil şəkildə ifadə edə bilir.

Səttar yaradıcılığındakı rəng plastikası və kontrast çalarların, əlavə rəng qarışıqları və onların müxtəlif dolğunluqlarının, isti və soyuq rənglər arasında əlaqənin tapılması rəssamın aparıcı yaradıcılıq metoduna çevrilir. Səttarın mənzərələrində səhər və günortanın canlı işığı, havanın sərinliyi və təravəti, bir sözlə təbiətin vəziyyəti və hətta səsi ifadə edilir. Bu isə o deməkdir ki, rəssam güclü şəkildə və özünəməxsus tərzdə rənglərin estetik aləminə nüfuz etməklə, "canlı" rəng plastikası və uyğunluq münasibətinə nail ola bilir. Naturaya belə münasibət "çox vaxt rəssama "naturadan da özəl" mənzərə yaratmağa imkan verirdi".

Səttar mənzərələrində rəsm texnikası və modelləşdirmə üzərində işin əsərdən-əsərə daha da təkmilləşməsinin şahidi oluruq. Rəssam daha da irəliyə gedərək rənglərdə təkcə material, forma və süjetləri deyil, rəng vasitəsi ilə öz hiss və duyğularını ifadə edirdi.

Ümumiyyətlə, "rəng münasibətlərinin plastikası" - rəng haqda "utilitar" münasibətdən prinsipial şəklində fərqlənir" fikri rəssamın əsərlərində öz bədii həllini tapır. Belə ki, Səttarın əsərlərində rəng, təkcə təsvirin və ya motivin dekorativ örtüyü deyil. Bu motivin fəlsəfi-poetik obrazının ifadəsidir.

**Onun mənzərələrdəki rəng təxəyyülə, improvizə və özünəməxsus təfsirə istinadlanır, obrazın bədii məntiqinin açılmasına xidmət edir. Xüsusilə rəssamın mənzərələrindəki improvizələrdə rəng əhəmiyyətli dərəcədə vurğulanır, onun plastik həlli tapılır, obraz yeni rəng qammaları və harmonik rəng çalarlarında ifadə edilir.**

● **Teymur RZAYEV,**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

## Ədəbiyyat

1.Azərbaycan incəsənəti. Müəlliflər heyəti Salamzadə Ə., Rzayev N., Kərimov K., Əfəndiyev R., Həbibov N. B."Maarif" nəşr. 1977.

2.Габибов Н.Д. Живопись Советского Азербайджана. Б. изд. "Элм". 1982.

3.Наджафов М. "Саттар Бахлулзаде. Живопись". М. изд "Советский художник" 1985.